Salam, Tatul

Həqiqətən sənin sözlərini oxuduqca, mənə “qonşu” deyə xitab etdiyini gördükcə, ifadə edə bilməsəm də, gözəl və qəribə hisslər keçirdirəm. Sanki öz yaşadığım məhlədəki qonşularımın mənə etdiyi şirin və əziz xitablar canlanır beynimdə. Həqiqətən bu qədər yaxın ola–ola, ama bu qədər də uzaq olmağı bacaran qonşular çox nadir hallarda olur, biz də onlardan sayılırıq deyəsən. Amma gec–tez həmin qonşular həqiqətən artıq bu qədər uzaqlığın mənasız olduğunu və sevginin verə bildiyi gücün daha çox hər iki tərəfi inkişafa aparacağını görməyə başlayırlar. Mən bizim kimi qonşuları qətiyyən belə görmək istəmirəm. Mənim gördüyüm qonşular həmişə mehriban olmağa, hörmətcil olmağa, bölüşməyə, danışmağa, gülməyə, birlikdə əylənməyə, sevilməyə və sevməyə, qonaq gedib–gəlməyə böyük dəyər verən olublar. Vaxtilə, neçə illər qabaq bizim kimi… Ama heç nə üçün gec deyil.

Mənim adım İlkindi. 20 yaşım var. Bakıda yaşayıram. İxtisasca iqtisadçıyam amma ki, həvəskar fəaliyyət kimi aktyorluqla məşğul oluram. Sosial aktiv bir gəncəm. Sülh quruculuğu mövzusunda bir çox təlimlərdə iştirak etmişəm eləcə də, tamaşada oynamışam. Gürcüstanda region ölkələrinin birlikdə iştirak etdiyi təlimdə ilk dəfə Ermənistandan olan gənc iştirakçılarla real ünsiyyətdə olmaq imkanım olub. Çox səmimi və mehriban gənclərlə tanış olmaq imkanım olmuşdu. Təlim müddətində bəzi gənclərin hərəkətlərindən tuta bilirdim ki, məişət həyatında olan bəzi xüsusiyyətlərimizdə necə də oxşarlıq var və bu mənə isti gəlirdi.

Bəli, daha proqressiv, daha sevgi dolu , daha rifahlı gələcək üçün birlikdə olub sülh quruculuğu istiqamətində ən azından öz ətrafımızdan başlıyaraq nələrsə edə bilərik. Bu münaqişənin uzanması heç kimə fayda vermir amma çox dəhşətli zərərlər yaradır. Nifrət öldürür ama sevgi yaşadır.

Niyə də bu qədər biz–birimizə yaxın ikən həmdə bir–birimizə düşmən olaq? Niyə bir–birimizin ölkələrinə gedib–gələ bilməyək ? Niyə birlikdə uğurlu gələcək üçün ortaq layihələrdə çalışmayaq? Axı bizim birlikdə dəyərləndirə biləcəyimiz çox imkanlarımız var. Torpaq, mahnı, yemək, adət–ənənələr, sərhədlər, sərvətlər–heçnə önəmli deyil. Önəmli olan İnsandır. Önəmli olan sevgidir və hisslərdir. Yaşamaq və Yaşatmaqdır.

Sənin Gürcüstanda görüş təklifini məmnuniyyətlə qəbul edirəm.

İlkin